Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Bəşər Əsədə qiyabi ölüm hökmü oxundu

indicə




Bəşər Əsəd

Avqustun 11-də Suriyada məhkəmə ölkənin devrilmiş lideri **Bəşər Əsəd** barəsində qiyabi ölüm hökmü çıxarıb. O, ölkədə 14 illik müharibə zamanı qətllər, işgəncələr və qanunsuz həbslər daxil, bir sıra cinayətlərdə təqsirli bilinib.

Əsəd 2024-cü ilin dekabrında üsyançıların hücumu ilə devrilib, üsyançılara başçılıq edən Əhməd əş-Şaraa Suriyanın faktiki liderinə çevrilib.

Dəməşqdən qaçan Əsəd hazırda Moskvadadır. Bu, onun barəsində ilk məhkumluq hökmüdür.

Əsəd dövründə təhlükəsizlik rəsmisi olmuş **Atif Nəcib** də ölüm cəzasına məhkum edilib.

1965-ci ildə anadan olan Əsəd atası Hafiz Əsədin ölümündən sonra, 2000-ci ildə prezident olub. O, sünni müsəlmanların çoxluq təşkil etdiyi ölkədə mənsub olduğu ələvi təriqətinin üstün mövqeyini qoruyub saxlayıb. Onun dövründə Suriya İranın müttəfiqi, İsrail və ABŞ-yə qarşı olub.

Suriyada 2011-ci ildə "Ərəb baharı" fonunda vətəndaş müharibəsi başlayıb. Demokratiya tələbi ilə keçirilən etirazlar genişmiqyaslı silahlı münaqişəyə çevrilib.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur